Respublika.- 2019.- 28 sentyabr.- S.6

# Respublikamızda meyvəçilik və çayçılığın inkişafında müstəsna yeri olan elmi-tədqiqat mərkəzi



**Azərbaycanda meyvəçiliyin tarixi çox qədimdir. Hələ uzaq keçmişimizdə burada yaşayan insanlar meyvə, giləmeyvə, qərzəkli bitkilərin məhsulu ilə qidalanmış, bunları yaxşı keyfiyyətlərinə görə seçib çoxaltmış və geniş ərazilərdə becərməyə başlamışlar. Orta əsrlərdə meyvəçilik Azərbaycan əhalisinin iqtisadiyyatında, demək olar ki, çox əhəmiyyətli yer tutmuşdur. XIX əsrdə meyvəçiliyin əsas mərkəzləri Ordubad, Quba, Gəncə, Zaqatala və s. olmuşdur. Təsadüfi deyil ki, Böyük və Kiçik Qafqaz dağlarının ətəklərində yerləşən bölgələrdəki bir çox kənd və yer adları da məhz meyvə adları ilə adlandırılmışdır. Məsələn, Almalı, Armudlu, Böyük Şabalıd, Əzgilli, Qozlu, Zoğallı, Göyəmli və s.**

XIX əsrin sonlarında Rusiya və Zaqafqaziya bazarlarında tərkibində vitaminlər, üzvi turşular, yağlar, mineral duzlar, karbohidratlar, fermentlər, zülal və digər qiymətli maddələrlə zəngin olan Azərbaycan meyvəsinə və meyvə qurusuna (qax) tələbat artdıqca, bölgələrimizdə də yeni bağlar salınmağa başlanmışdır. Bu bağlarda digər yerlərdən gətirilmiş məhsuldar meyvə sortları ilə yanaşı, uzun illər xalq tərəfindən qorunub saxlanmış yerli sortlar da əkilirdi. Bunlardan almanın "Cır Hacı", "Sarıturş", "Qızıl Əhmədi", armudun "Abasbəyi", "Daşarmudu", "Bildirçinbudu", narın "Gülöyşə", "Mələs", "Balamürsəl", heyvanın "Cardom", "Atbaşı", gilasın "Sarı Droqan", əzgilin "Kıtıl", zoğalın "Qara zoğal", "Kəhrəba zoğal", üzümün "Ağ şanı", "Qara şanı", "Ağadayı", əncirin "Sarı Abşeron", "Armudəncir", "Tabaqəncir" və s. sortlarını misal göstərmək olar.

1920-ci illərdə Azərbaycanda bağçılığa maraq daha da artmış, meyvə və giləmeyvə bitkilərin bioloji xüsusiyyətləri, onların becərilmə üsulları, ekoloji sistemdə tutduğu yer elmi əsaslar üzrə öyrənilməyə başlanmışdı. 1925-ci ildə artıq Ordubad, Quba və Xaçmaz rayonlarında konserv zavodları, meyvə tədarükü məntəqələri, habelə meyvəqurudan sexlər tikilib istifadəyə verilmişdir. Azərbaycanda meyvəçiliyə maraq artdıqca bu sahənin elmi əsaslar üzrə inkişaf etdirilməsinə də diqqət çoxalırdı.

1926-cı ildə böyük rus alimi, genetik N.İ.Vavilovun təşəbbüsü ilə Bakıda Ümumittifaq Tətbiqi Botanika və Yeni Bitkilər İnstitutunun Şərqi Zaqafqaziya Şöbəsi yaradılmış, 1944-cü ildən həmin müəssisə elmi-tədqiqat institutu kimi fəaliyyət göstərməyə başlamışdır. 1956-cı ildə həmin elmi müəssisənin adı dəyişdirilərək Azərbaycan Bağçılıq, Üzümçülük və Subtropik Bitkilər Elmi-Tədqiqat İnstitutu adlandırılmışdır. 1964-cü ildə həmin institutun elmi fəaliyyətini genişləndirmək məqsədilə o, Bakıdan Quba rayonuna köçürülmüşdür. Hazırda Qubanın Zərdabi qəsəbəsində yerləşən bu elm mərkəzi Kənd Təsərrüfatı Nazirliyinin Meyvəçilik və Çayçılıq Elmi-Tədqiqat İnstitutu adı ilə fəaliyyət göstərir.

İllər keçdikcə institut alimlərinin səy və tövsiyələri əsasında respublikamızın Quba-Xaçmaz, Şəki-Zaqatala, Gəncə-Qazax, Lənkəran-Astara, Abşeron, Şirvan və Qarabağ bölgələrində çoxillik əkmələr üzrə kolleksiya bağları salınmışdır.

Hazırda institutun alimləri respublikanın, demək olar ki, bütün bölgələrində tumlu, çəyirdəkli, qərzəkli meyvə, subtropik və sitrus bitkilərinin, eləcə də çay və zəfəranın becərilmə texnologiyası, yeni sortların introduksiyası, seleksiyası, gübrələmə və bitki mühafizəsi, o cümlədən məhsulun saxlanması və emalı kimi məsələlərlə məşğuldur. Fəxrlə onu da qeyd etmək istərdim ki, institutumuzun seleksiya yolu ilə əldə etdiyi yeni meyvə sortları Rusiyanın Stavropol diyarının, Rostov vilayətinin və Dağıstan Muxtar Respublikasının bağlarında becərilir. Respublikamızın Quba-Xaçmaz bölgəsində isə yeni "Azərbaycan", "Səməd Vurğun", "Neftçilərə hədiyyə", "Nailə", "Quba gözəli", "Quba reneti", "Lətifə", "Yadigar", "Gülşən" və s. kimi dadlı alma və armud sortlarından ibarət 700 hektara yaxın meyvə bağları salınmışdır.

Meyvəçilik və Çayçılıq Elmi-Tədqiqat İnstitutuna 7 ilə yaxındır ki, tanınmış alim İlham Səlim oğlu Qurbanov rəhbərlik edir. O, işlədiyi bu illər ərzində institutda aparılan elmi-tədqiqat işlərinə həmişə xüsusi diqqət yetirmiş, respublikamızda yeni məhsuldar meyvə bağlarının salınmasına, habelə institutun dünya bağçılığında xüsusi yeri olmuş müəssisələri ilə elmi əlaqələr qurmasına önəm vermişdir.

İnstitutumuzla bağlı maraqlı bir fakta da toxunmaq istərdim. Azərbaycanda aqrar elmin, xüsusilə meyvəçilik elminin inkişafı sayəsində institut dünyanın qabaqcıl ölkələri ilə də elmi əlaqələr qura bilmişdir. Artıq institutumuz Türkiyə, Belarus, İspaniya, Fransa, İngiltərə, İtaliya, Dağıstan Respublikası, Rusiya, Çin, Almaniyanın dövlət və özəl qurumları ilə əməkdaşlıq edir.

Ölkəmizdə 1999-cu ildə Aqrar Elm və İnnovasiya Mərkəzinin yaradılması ilə əlaqədar Gəncədə, Quba, Xızı, Tərtər və Qazax rayonlarında institutun yetişdirdiyi və yerli sortlardan ibarət 10 hektara yaxın nümunəvi bağ salınmışdır.



Hazırda Azərbaycan Respublikasında regionların sosial-iqtisadi inkişafına dair növbəti Dövlət Proqramının həyata keçirildiyi bir vaxtda institutumuzun alimləri qarşısında da mühüm vəzifələr durur. Fəxrlə deyə bilərəm ki, institutumuzun direktoru İlham Qurbanovun rəhbərliyi ilə alimlərimiz meyvə, qərzəkli meyvə və subtropik bitkilər üzrə zəngin genofond yaratmış, kolleksiya və pomoloji bağlar salmağa başlamışlar.

Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramından irəli gələn vəzifələrlə bağlı aşağıdakıları bildirmək istərdim:

- Meyvələrin insan qidasında mühüm rolunu nəzərə alaraq, Azərbaycanda dietik müalicə əhəmiyyətli bağçılığın yaradılmasını - narın, feyxoanın, innabın, əncirin, zeytunun və aktinidianın tərkibində olan bioaktiv maddələri saxlamaqla onların emalı üsullarını öyrənmək;
- Nadir bitkilərin, o cümlədən saforanın, kivinin, aktinidianın və s. toplanmasını, çoxaldılmasını genişləndirmək;
- Respublikada geniş miqyasda yayılmayan vegetativ və ucaboylu calaqaltı formaları gətirmək və onları sınaqdan keçirmək;
- Meyvəçilik üzrə ixtisaslı kadrlar yetişdirmək.

Meyvəçilik və Çayçılıq Elmi-Tədqiqat İnstitutunun bu il 93 yaşı tamam olur. Ötən bu illər ərzində institut xeyli böyümüş, elmi-tədqiqat işləri genişləndirilmiş, respublikamızda bağçılığın və subtropik bitkilərin inkişafında onun əvəzsiz xidmətləri olmuşdur. Hazırda bu elmi-tədqiqat ocağında 8 şöbə və 3 laboratoriya fəaliyyət göstərir. Bununla yanaşı, institutun Lənkəran Çay filialı, Abşeron Təcrübə Stansiyası, Göyçay, Zaqatala və Qəbələdə Dayaq məntəqələri fəaliyyət göstərir. Ümumilikdə 148 nəfərə yaxın mütəxəssisin çalışdığı bu müəssisədə və təcrübə şəbəkələrində meyvə, subtropik bitkilər və çay bitkisi sortlarının bioloji xüsusiyyətlərinin öyrənilməsi, onlara aqrotexniki qulluq edilməsi və s. bu kimi məsələlər üzrə elmi-tədqiqat işləri aparılır.

**Babakişi QULİYEV,**
**Meyvəçilik və Çayçılıq Elmi-Tədqiqat İnstitutunun şöbə müdiri, aqrar elmlər üzrə fəlsəfə doktoru.**